UOT-811.11-112
Səhifə: 114-119
https://doi.org/10.59849/2663-8967.2026.2.114

Elnurə Kərimova
Azərbaycan Dillər Universiteti
elnura.achmedova85@mail.com

"NİBELUNQLAR NƏĞMƏSİ" EPOSUNUN MƏTNİN SEMANTİK TƏŞKİLİNDƏ RƏNG SİMVOLİKASININ ROLU VƏ KONTEKSTUAL İMKANLARI

XÜLASƏ

Məqalədə alman epik ədəbiyyatının ən möhtəşəm nümunələrindən sayılan "Nibelunqlar nəğməsi" eposunun mətni rəng simvolikasının verbal ifadəsinin linqvistik təhlili aparılır. Tədqiqat əsnasında məlum olur ki, epos mətnində bir çox universal mahiyyətli rəng simvolikası elementləri yer aldığı kimi, bir sıra rəng simvolizminin verballaşması elementləri frekvental mahiyyət kəsb edir. Frekvental mahiyyət kəsb edilməsi isə onların ümumgerman epik düşüncəsi üçün ortaq olan və bununla da digər german dil qrupuna daxil olan dillərin epos janrlı ədəbiyyat mətnləri nümunələrində təsadüf edilməsi ilə bağlıdır. Digər tərəfdən frekvental səciyyəli rəng simvolizmi elementlərinin kurtuaz ədəbiyyatı janrının öz daxili semantik şərtlənməsi ilə izah edilən rəng yozumları, semantik əlaqələndirmələri də vardır. Eləcə də dastan mətndə müəyyən mənada unikal semantik şaxələnmə kimi səciyyələndirilən, yəni sırf alman epik düşüncəsi üçün işlək olan rəng simvolizmi faktları da yer alır. Epos mətnində "*grâwer*" (boz), "*swarz*" (qara), "*grüen*" (yaşıl), "golt" (qızılı), "*rōte*" qırmızı rənglərin xüsusilə rəng simvolizmi sinkretizmini ifadə etdiyi məlum olur. Eləcə də məlum olur ki, epos mətnindəki rəng simvolikası bir sıra məqamlarda çoxmənlı olub, əlavə konnotasiyalar da qazana bilirlər. Məsələn, qırmızı rəng həm təşviş, həyəcan, həm də (xalis qızılın rəngi kimi) kübarlılıq, üstün təbəqə nümayəndəliliyi anlamını verirdi.

***Açar sözlər**: "Nibelunqlar nəğməsi" eposu, mətnin semantik təşkili, rəng simvolikası, kontekstual anlam, semantik kodlaşma, elitar diskurs.*

Giriş: Məlumdur ki, cəngavər mədəniyyətinin yayğınlaşdığı mərhələdə rəng simvolikası mühüm rol oynamağa başlamışdı. Bu səbəbdən də Nibelunqlar dastanında istifadə edilən rənglərin seçiminin təsadüfi olmadığı, kontekstə uyğun şəkildə müəyyən missiya və məramı ifadə etdiyini təsbit etmiş oluruq. Epos mətnində yer alan rənglərin rəng simvolizmi kontekstində təhlili onu deməyə əsas verir ki, dastan mətnin ümumi semantik təşkilində, bir xronotopdan digər xronotopik matrisaya keçiddə rənglərin müəyyən anlam yüklü olması məqamı diqqətdən qaça bilməz. Maraqlıdır ki, "Böyük Edda" qədim island eposunda rəng simvolikasını araşdırmış dilçi A.S.Danilovun qeyd etdiyi kimi, bu german əsilli xalqın mifoloji təfəkküründün ən möhtəşəm abidələrindən sayılan eposda da rəng simvolikasından geniş şəkildə istifadə edilmişdi. Belə ki, dilçinin diqqət çəkdiyi kimi, bu eposda da qara, boz, yaşıl, qırmızı rənglərinin yüksək işləklik nümayiş etdirdiyini və müəyyən kontekstual anlamlarla yükləndiyi ortaya çıxır [5]. Məhz, rəng palitrasındakı ortaqlıq və digər tərəfdən İsland və alman dillərinin genealoji ortaqlığı məqamı rəng və funksional semantika sinkretikliyinin ortaq kökdən şaxələndiyini ehtimal etməyə əsas verir.

Qeyd edək ki, rəng simvolikasının sinkretikliyi, ilk növbədə, ilkin təfəkkür dönəmindən rudiment kimi qorunub qalan maraqlı dil fenomenini təcəssüm etdirir. Bu elə bir linqvistik fenomendir ki, bu zaman eyni bir nominasiya vahidi özlüyündə həm rəng adının, həm də qeyri-rəng mənasını eyni vaxtda ehtiva edir.

Qədim german qəhrəmanlıq dastanları mətnlərində yer alan rəng simvolikası faktlarını araşdırmış A.A.Veliçko qeyd edir ki, bu epos mətnlərindəki rənglərin "*polisemantikliyi, ... allyuzivliyi, amfibolikliyi* (qeyri-yekcinsliyi, yəni fərqli yozumluluğu – E.K.) *dərin struktur-semantik tutum-məzmun formalaşdırırlar*" [4].

Bir qədər haşiyəyə çıxıb qeyd edək ki, diskursun reallaşma formatı yekcins olmayıb, verbal, qeyri-verbal və transverbal mahiyyət kəsb edir. Konkret olaraq, elitanın nitq etiketində, davranış stereotiplərində transverbal mahiyyətli komponentlərin semantik ifadə planındakı imkanlarını araşdırmış dilçilərdən T.Ostrovskayanın fikirləri maraq doğurur. Dilçi bu amilin (diskursun reallaşmasında rol oynayan transverbal ifadə komponentlərinin) öz ifadəlilik səviyyəsində, heç də digər komponentlərdən (yəni, sözlü və qeyri-verbal/jestikulyator, mimik, fonasyon mahiyyətli ifadə komponentlərindən – E.K.) geri qalmadığını sübut etmişdi. (daha ətraflı bax: [7]). Bu baxımdan, epos mətnində təsvir edilən diskursiv ortamların reallaşmasında transverbal komponentlər, o cümlədən, geyim əşyalarının rəng seçiminin, heç də təsadüfi olmamsının ortaya çıxması bir çox maraqlı mətləbləri müəyyənləşdirməyə imkan verir.

"*Die arābīschen sīden, wīz alsō der snê unt von Zazamanc der guoten, grüen' alsam der klê..*" (hərfi tərcümə: "*Ərəb ipəkləri, qar kimi bəyaz (ağ) və yaxşı (bərəkətli/gözəl) Zazamankdan olan, yonca kimi yaşıl...*") [1]. Bu nümunədə biz, yaşıl rəngin orta əsrlər cəngavərlərinin geyiminin rəngi kimi istifadə edildiyini görürük. Belə ki, Ziqfild və Günterə cəngavər libası tikdirmək həyəcanında olan Krimhildanın hazırlıqlarını təsvir edən həmin iqtibasda rəng seçimi azad, lakin sülhsevər, sevgi dolu, sülh missiyası ilə yüklənmiş cəngavərin libas rəngi kimi ortaya çıxır.

Xatırladaq ki, Yohan Höyzinqanın da (Johan Huizinga) qeyd etdiyi kimi, orta əsrlərdə cəngavərlərin yaşıl və ya göy rəngdə libas seçməsi, bu rənglərdən istifadə etməsi mütləq şəkildə müəyyən kontekstual missiya ilə əlaqələndirilirdi. Y.Höyzinqanın təqdim etdiyi məlumatdan bəlli olduğu kimi, çox nadirən istifadə edilən bu rənglər sevgi, aşıqlik və sadiqlik simvolu kimi istifadə edilirdi [9, s.271]. Belə məlum olur ki, kontekstə uyğun olaraq, kurtuaz ədəbiyyatı mətnlərində yaşıl geyimli cəngavər aşıq cəngavər kimi, yenicə sevgi hissini dadmış cəngavər kimi simvolizə edilirdi. Göy libaslı cəngavər isə öz sadiqliyini bəyan edən, sevgi obyekti seçimində heç bir tərəddüd duymayan şəxs kimi və ya davam edən sevgi münasibətləri çərçivəsində ürəyinin boş olmadığını bəyan edən aşiq kimi işarələnirdi.

Konkret olaraq, Nibeluqnlar eposunun mətnin irəlidəki hissələrində Brünhildanın elçiliyinə gedən Ziqfildin və Gyunterin göy rəngi seçməsi kurtuaz mədəniyyətinin sadiqlik və kəhkəşan simvolu kimi ortaya çıxır. Eposdan iqtibas əsasında həmin məqamı təhlil edək: "*Von hiez man dā dēn herren wol tiure golt-borten leien ūf die lazūr-sīden...*" (hərfi tərcümə: "*Oradan (o vaxtdan) orada cənab üçün (bu kontekstdə, cəngavər üçün) lacivərd ipəyin üzərinə çox bahalı qızıl baftaların tikilməsini əmr etdilər*".) [1]. Kontekstdə göy rəngi, əslində isə lacivərd mavisi (*lazūr*) həm də güc nümayişinə xidmət edən, maddi imkanın yüksək olmasını nümayişkaranə şəkildə, göstərən bununla da sosial statusun yetərincə yüksəkliyini sərgiləyən bir rəng kodlaşması kimi də qəbul edilə bilər. Bunun ən bariz sübutu kimi, həmin dövrlər (Orta əsrlərdə) lacivərd basmalı parçaların az qala qızıl qiymətinə olması ilə izah edilə bilər. Bunun əsas səbəbi isə sadəcə Əfqanıstan çıxarılan həmin piqmentin çox nadir və çətin əldə edilən olması və bu səbəblə də qızıl qiymətinə tutulması ilə bağlı idi. [3]. Beləliklə də, göründüyü kimi, bu kontekstdə lazur rəngi, yəni lacivərd rəngi həm sadiqliyin ifadəsi üçün, elçiliyinə gəldikləri xanıma sədaqətin əvvəlcədən bəyan edilməsi kimi deşifrlə edilə bilər. Eyni zamanda burada lacivərd rəngi həm də yüksək statusun, sosial sinif yüksəkliyinin, təbəqə imtiyazlılığının simvolik reprezentantı kimi çıxış edir.

"..phelle dar ûfe lâgen ***swarz*** *alsam ein kol, daß noch snellen degenen stüende in hôhzîten wol*." (hərfi tərcümə: "*Üzərində kömür kimi* ***qara*** *ipək parçalar uzanırdı,Hansı ki, hələ də cəsur döyüşçülərə bayramlarda yaraşardı*") [1].

Burada artıq cəngavərlərin adi-gündəlik geyim rənginin (qara rəngin) möhtəşəmliyi tərənnüm edilməklə, süjet xəttinin qeyri-adi nizamının olmadığı işarə edilir. Qeyri-adi bir rəng tonunun təsvir edilməməsi gündəlik rəng nizamını ifadə edir. Müqayisə üçün onu deyək ki, Brünhildanın elçiliyi üçün tikdirilmiş geyimlər, gün ərzində bir neçə dəfə dəyişdirilən libaslar elitar diskursun vacib transverbal atributu kimi çıxış edir. Növbəti nümunədə biz, geyimin transverbal göstərici-oriyentir olduğu bir daha məlum olur.

"*...daz wir vier gesellen ze vier tagen tragenie drier hande kleider und also guot gewant,daz wir âne scande rûmen Prünhilde lant*". (hərfi tərcümə: "*ki biz dörd yoldaş dörd gün*

ərzində geyinək,hər birimiz üç növ paltar və elə gözəl geyim,ki biz rüsvayçılıq olmadan Brünhildanın ölkəsini tərk edək") [1]. Kontekstdə "rüsvayçılıq" konseptinin verballaşmasında sıradan geyim, adi libasın rol oynaya biləcəyi məntiqi ortaya çıxır və əksinə "*drier hande kleider" "üç növ paltar", "also guot gewant" "elə gözəl geyim, libas*" ifadələri də həm "zadəganlıq" konseptinin yaxın semantik periferiyasına daxil olur. Digər tərəfdən də "rüsvayçılıq" konseptinin uzaq periferiyasına aid edilə bilir.

Rəng semantikasının simvolik kodlaşmasının təhlilinə qayıdaraq qeyd edək ki, epos mətnində boz (Grâwer) və qızılı (Golt) rənglər kontekstual antonimlikdə təqdim edilir. Bu zaman boz rəng fraqmentar planda aşağı təbəqənin, daha kasıb, daha az mötəbər cəngavər təbəqəsinin simvolu kimi istifadə edilir. Bundan fərqli olaraq, qızılı rəng epos mətni boyunca zadəganlığın, mötəbərliliyinin, imtiyazlılığın, bir sözlə sosial statusun yüksəkliyinin simvolu kimi işlədilir. Nümunələrə diqqət edək: "*dô hiez man strîten sēre: manec grâwer helm dā brach,...*" (hərfi tərcümə: "*Onda güclü (şiddətli) döyüşmək əmr edildi: orada bir çox boz dəbilqə parçalandı (sındı)...*") [1].

Bu iqtibasda yüksək təbəqəyə aidliyi olmayan döyüşçülərin, cəngavərlərin dəbilqələrinin rəngi sosial status identikatoru kimi çıxış edir. Müqayisə üçün növbəti iqtibasa diqqət edək: "*man sah dā liehte glitzen manegen gölden helm*." (Hərfi tərcüməsi: "*...orada bir çox qızılı dəbilqənin parlaq şəkildə bərq vurduğunu gördülər*.") [1]. Kontekstdən də göründüyü kimi, burada "*gölden helm"* (qızılı dəbilqə) ifadəsi daha öncəki iqtibasda yer alan *grâwer helm* (boz dəbilqə) hərbi termin səciyyəli söz birləşməsinə antonim kimi çıxış edir. Əgər birinci halda adı bilinməyən, sıradan döyüşçülərin, cəngavərlərin dəbilqələrinin rəngi sosial status elementi kimi vurğulanırsa, ikinci halda eposun əsas qəhrəmanlarından Ziqfildin, Burqundiya kral ailəsinin nümayəndələrindən: Günterin (Gunther), Qernotun (Gernot) və Gizelherin (Giselher) geyiminin detallaşdırmasında qızılı rəngə vurğu edilir.

Məsələn, eposun giriş hissələrində (III avantürda) Ziqfildin Vormsa gəlişindəki xüsusi göstərişli geyim detallarının təsvirində qızılı elementə diqqət yetirilir: " *....diu scildes-puckel dā wāren **rōte golt**-fat: diu dēgen-līche wæte in ze hōh-zīten zat*." (hərfi tərcümə: "*Qalxanların qabarıq mərkəzi (göbəyi) orada **qırmızı qızıl** örtüklü idi; cəngavərlərə layiq olan bu geyim bayram günlərində onlara çox yaraşırdı*") [1].

Göründüyü kimi, epos mətninə ilk girişində belə, Ziqfildin üst təbəqə cəngavər olması gerçəkliyi rəng simvolikası vasitəsilə qabardılır. Özü də o da xüsusi diqqətə layiqdir ki, bu kontekstdə ən yüksək əyarlı qızıl rəngindən, yəni qırmızı qızılı rəngindən istifadə edilmişdi. German, Kelt və Slavyan dil qruplarına daxil olan müxtəlif dillərin materialları əsasında qırmızı qızıl anlayışının ifadə imkanlarını tədqiq etmiş C.LeFövr qeyd edir ki, ən saf, ən arındırılmış, yəni gümüş, mis tərkibindən ayırd edilərək ən təmiz halında istehsal olunmuş qiymətli qızıl əyarı latın dilində "*aurum obryzum*" (orijinalda, hərfi tərcümə olaraq: saf/saflaşdırılmış, xalisləşdirilmiş qızıl), yəni tərcümədə "qırmızı qızıl" adlandırılırdı. Dilçi daha sonralar German dillərinə, məhz latın dilindəki söz birləşməsinin uyğunlaşdırılmış kalkasının daxil olduğunu (rotes gold), bundan sonra isə leksik mənimsəmə trayektoriyasının Avropanın Şərq regionlarına doğru irəlilədiyini qeyd etmişdi. Dilçi slavyan dillərindəki "czervone slotho" variantının (rus dilində: червонное золото) da, məhz German dillərindəki söz birləşməsinin birbaşa hərfi tərcüməsi kimi ortaya çıxdığını qeyd etmişdi [2; 23-24, 32].

Epos mətnin təhlili onu deməyə əsas verir ki, bu saflaşdırılmış qızıl rəngi, yəni qırmızı qızıl rəngi dastan obrazlarının sosial iyerarxiyasını vurğulamaq üçün istifadə edilən rəng simvolizmi elementi kimi çıxış edir. Növbəti iqtibas da bu fikrimizi əyani şəkildə təsdiqləyir: " *..was von **rôtem golde,** ir gereite wolgetân; ir ros in giengen ebene, des küenen Sîvrides man*". (hərfi tərcmədə: *"...[hər şey] qırmızı qızıldan idi, atlarının yəhər-cilov dəstləri gözəl hazırlanmışdı; cəsur Ziqfridin adamlarının atları altlarında rəvan (sakitcə) addımlayırdı*.") [1].

Göründüyü kimi, burada Ziqfildin döyüşçülərinin süvarilik atributlarının, orta əsr hərbi sursat və süvari arfsenalının (at yəhərlərinin, üzəngi və silahlarının) ən yüksək əyarlı qızılla, yəni qırmızı qızılla işlənməsi faktı onların saraya təşrif buyurduqları səhnədəki ehtişamlarını, yüksək təbəqə aliliyini, cəngavər elitasını təmsil etməklərini əyani şəkildə nümayiş etdirir. Bununla da

biz, elitar diskursun transverbal elementlə reallaşmasının, daha dəqiq desək, diskurs reallaşmasındaü transverbal elementlərin diskurs yönləndirici mahiyyət kəsb etməsinin şahidi oluruq.

Növbəti iqtibasda isə bilvasitə sosial iyerarxiyanın ən üst təbəqəsində qərarlaşmış Burqundiya kral ailəsinin nümayəndələrinin, zadəganların qızılı dəbilqədən istifadə etməsi faktı vurğulanır: "*man sah dā liehte glitzen manegen gölden helm, dō dīu herren scōne rīten ūf dēn velm*." (hərfi tərcümədə: "*O vaxt o cənablar (burada söhbət Burqundiya kralları və zadəganlarından gedir – E.K.) düzənlik boyunca gözəl şəkildə at sürərkən, orada bir çox qızılı dəbilqənin parlaq şəkildə at sürərkən, orada bir çox qızılı dəbilqənin parlaq şəkildə bərq vurduğunu gördülər*") [1].

Bu kontekstdə "*dīu herren*" (cənablar/hökmdarlar) ümumiləşdirməsi Burqundiya elitasına işarə etdiyi halda, digər iqtibasdakı "manec" (bir çox, çoxlu, çox sayda) ümumiləşdirməsi kütləviliyə, dolayısı ilə kütləyə (sıradan insanlara, aşağı təbəqəli döyüşçülərə) işarə edir.

"*Der scilt dēr was von golde, dā er dēn herren truoc... dō schein von sīneme helme dēn helden michel lieht*." (hərfi tərcüməsi: "*Cənabın* (bu kontekstdə Ziqfriddən söhbət gedir) *daşıdığı o qalxan qızıldan idi... o vaxt onun dəbilqəsindən qəhrəmanlara tərəf böyük bir işıq saçdı*.") [1].

O.V.Sedovanın qeyd etdiyi kimi, "Böyük Edda" eposunda da qırmızı rəng tələtümün, həyəcanın, qanın, çaxnaşmanın, digər tərəfdən fiziki sağlamlığın rəmzi kimi istifadə edilir. Dilçinin diqqət çəkdiyi kimi, dastan mətnində ağ rəng nəcabətin, zərifliyin, ülviliyin; qara rəng aşağı təbəqəyə aidliyin, eləcə də çirkliliyin, natəmizliyin rəmzi kimi təqdim edilirdi. Sevgi obyekti olan xanımın bəyaz əlinin rənginin vurğulanması da, məhz, nəcabət və bəkarətin, habelə üzviliyin qabardılması anlamını daşıyırdı [8]. Bu kontekstdə biz, təbii olaraq, Nibelunqlar haqqındakı dastandakı ilk görüş xronotopu çərçivəsində təqdim olunan qeyri-verbal təzahürlərdən birini xatırlada bilərik. Belə ki, təqdim edəcəyimiz iqtibasda Ziqfildin sıxdığı əlin (Krimhildanın əlinin) ağ olması faktının qeyd edilməsi də qətiyyən təsadüfi xarakter daşımır.

"*Wart dâ vriuntlîche getriutet (ir vil) wîßiu hant / von herzen lieber minne, daß ist mir niht bekant.*" (Der Nibelunge liet, 5. Âventiure, Strophe 293). Hərfi tərcüməsi: *"Orada ürəkdən gələn əziz sevgidən dolayı onun o ağ əlinin dostca/sevgiylə sığallanıb-sıxılıb-sıxılmadığı mənə məlum deyil."* [1]. Təhkiyəçinin remarkası kimi təqdim olunan bu iqtibasda rəng simvolikasının kodlaşma prinsiplərinə uyğun olaraq, Krimhildanın əlinin rəngi, sadəcə gözəllik təsviri kimi deyil, onun (Krimhildanın) elitar təbəqəyə aidliyinin dolayı təqdimatı kimi də istifadə edilir. Boz rəngin sinkretik mahiyyətli anlamlandırması məqamının təhlilinə qayıdaraq onu da qeyd edək ki, eposun baş anti-qəhrəmanın – Hagenin xarici görünüş portretləşdirməsində boz rəngin vurğulanması bu rəngin dastan mətni kontekstindəki qeyri-pozitiv yükünü bir daha qabarıq şəkildə ortaya qoymuşdu.

"*Er was an sīneme lībe* ***grāwer*** *unde grīs, sīn blick was dēn helden michel an-gīs*." (Hərfi tərcüməsi: "*O, bədəncə boz və qoca (çal) idi, onun baxışı qəhrəmanlara böyük bir qorxu/vahimə saçırdı*.") [1]. Kontekstdən də aydın şəkildə göründüyü kimi, dastanda boz (***grāwer***) sinkretik məna yükünə vahimə, qorxu, heybətlilik kimi konnotasiyaların simvolikləşdirilməsi də daxildir. Maraqlıdır ki, bu sinkretizmin bənzər təcəssüm formalarını digər german genealogiyalı dastanda da izləmək olar. "Böyük Edda" qədim island eposu mətnində "*grār*" (boz) rəngin simvolik mahiyyətini dəyərləndirən A.S.Danilov vurğulayır ki, dastanın semantik fəzasında bu rəng mütləq şəkildə həm "boz", həm də heybətli, qorxulu" anlamlarının ifadəsinə xidmət edir [6, s. 21].

Nəticə: Təqdim olunan məqalə çərçivəsində "Nibelunqlar nəğməsi" eposunun mətnində yer alan rəng adlarının simvolizminin, sinkretik anlamlandırılmasının yalnız müəyyən qismi əhatə edilmişdi. Nibelunqlar dastanı kimi iri həcmli monumental epik söz sənəti abidəsi bu kimi rəng simvolizmi faktları ilə zəngindir və onların sistemli tədqiqi dilçilərin ətraflı və əsaslandırılmış təhlil yanaşmalarını gözləyir. Lakin məqalə formatına sığdıra bildiyimiz nümunələrdə onu deməyə əsas verir ki, dastan mətninin strukturlaşmasında, bəzi personajlarla bağlı altmənaların oxucuya (dinləyiciyə) ötürülməsində rəng simvolikası həlledici rol oynamışdı.

Ədəbiyyat siyahısı

1. Der Nibelunge liet. https://www.gutenberg.org/files/48888/48888-h/48888-h.htm
2. Le Feuvre, C. 'Red gold' in Germanic, Celtic and Slavic // Strategies of translation: language contact and poetic language (Actes du colloque de Cologne, 17-18 déc. 2010), éd. J.-L. García Ramón, D. Kölligan, Linguarum Varietas 3/4, Roma, 2014-2015, p. 11-33 https://www.academia.edu/19853703/_Red_gold_in_Germanic_Celtic_and_Slavic
3. Radini, A., Warinner, C. et al. Medieval women's early involvement in manuscript production suggested by lapis lazuli in dental calculus // Science Advances. — 2019. — Vol. 5, No. 1. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC6326749/
4. Величко, А.А. Семантика цветообозначения в текстах древнегерманского героического эпоса // Москва: Современные проблемы науки и образования, https://science-education.ru/article/view?id=17238
5. Данилов А. С. Семантика древнеисландского цветообозначения groenn «зеленый» в песнях «Старшей Эдды» // Индоевропейское языкознание и классическая филология 2008, https://cyberleninka.ru/article/n/semantika-drevneislandskogo-tsvetooboznacheniya-gr-nn-zelenyy-v-pesnyah-starshey-eddy
6. Данилов, А. С. Синкретизм цветовых и мифопоэтических признаков в семантике цветообозначений эддической поэзии, Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук, Тамбов-2009, 26 с.
7. Островская Т.А. Трансвербальные и поведенческие знаки дискурса элиты в непрямой коммуникации // Екатеринбург: Дискурс-Пи 2017, https://cyberleninka.ru/article/n/transverbalnye-i-povedencheskie-znaki-diskursa-elity-v-nepryamoy-kommunikatsii
8. Седова О.В. Цветовая символика сословий в средневековой Скандинавии (на материале поэмы «Старшая Эдда») // История: факты и символы 2017 https://cyberleninka.ru/article/n/tsvetovaya-simvolika-sosloviy-v-srednevekovoy-skandinavii-na-materiale-poemy-starshaya-edda
9. Хёйзинга, Й. Исследование форм жизненного уклада и форм мышления в XIV и XV веках во Франции и Нидерландах 2005, Москва: Издательская группа «Прогресс» «Культура», 320 с., https://yanko.lib.ru/books/cultur/heyzinga-autumn.pdf

Эльнура Каримова

Роль и контекстуальные возможности цветовой символики в семантической организации текста эпической поэмы «Песнь о Нибелунгах»

Резюме

В статье проводится лингвистический анализ вербального выражения цветовой символики в тексте эпоса "Песнь о Нибелунгах", который считается одним из самых грандиозных образцов немецкой эпической литературы. В ходе исследования становится ясно, что в тексте эпоса, наряду со многими элементами цветовой символики универсального характера, ряд элементов вербализации цветового символизма носит фреквентальный (высокочастотный) характер. Обладание фреквентальным характером связано с тем, что они являются общими для общегерманского эпического мышления и благодаря этому встречаются в текстах эпических жанров других языков, входящих в германскую языковую группу. С другой стороны, элементы цветовой символики фреквентального характера имеют также интерпретации цвета и семантические связи, объясняемые внутренней семантической обусловленностью жанра куртуазной литературы. Кроме того, в тексте дастана присутствуют факты цветовой символики, характеризующиеся в определённом смысле как уникальное семантическое разветвление, то есть функционирующие исключительно для немецкого эпического мышления. Становится очевидным, что в тексте эпоса цвета "grâwer" (серый), "swarz" (чёрный),

“grüen” (зелёный), “golt” (золотой), “rōte” (красный) выражают, в частности, синкретизм цветовой символики. Также выясняется, что цветовая символика в тексте эпоса в ряде случаев многозначна и может приобретать дополнительные коннотации. Например, красный цвет означал как тревогу и волнение, так и (как цвет чистого золота) аристократизм и принадлежность к представителям высшего сословия.

***Ключевые слова**: эпическая поэма «Песнь о Нибелунгах», семантическая организация текста, цветовая символика, контекстуальное значение, семантическое кодирование, элитарный дискурс.*

Elnura Karimova

The role and contextual possibilities of color symbolism in the semantic organization of the text of the epic poem “The Song of the Nibelungs”

Summary

The article conducts a linguistic analysis of the verbal expression of color symbolism in the text of the epic 'The Song of the Nibelungs', which is considered one of the most magnificent examples of German epic literature. In the course of the study, it becomes clear that along with many elements of color symbolism of a universal nature, a number of elements of the verbalization of color symbolism in the text of the epic are of a frequentative (high-frequency) character. Possessing a frequentative character is due to the fact that they are common to the common Germanic epic mindset and, as a result, are found in the texts of epic genres of other languages belonging to the Germanic language group. On the other hand, the elements of color symbolism of a frequentative nature also have color interpretations and semantic connections explained by the internal semantic conditioning of the courtly literature genre. Furthermore, the text of the epic contains facts of color symbolism characterized in a certain sense as a unique semantic branching, that is, functioning exclusively for the German epic mindset. It becomes evident that in the text of the epic, the colors 'grâwer' (gray), 'swarz' (black), 'grüen' (green), 'golt' (golden), and 'rōte' (red) express, in particular, the syncretism of color symbolism. It also appears that the color symbolism in the text of the epic is polysemous in a number of cases and can acquire additional connotations. For example, the red color signified both anxiety and excitement, as well as (as the color of pure gold) aristocratism and belonging to the representatives of the upper class.

***Key words**: epic poem "The Song of the Nibelungs", semantic organization of the text, color symbolism, contextual meaning, semantic coding, elite discourse*

Çapa tövsiyə edən: ***Azərbaycan Dillər Universiteti***

Rəyçilər: ***f.f.d., dos.X.Əsgərova***
f.e.d.B.Məmmədova